UOT 371

***Rafael Mail oğlu Əliyev***
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin baş müəllimi*

# ABBAS SƏHHƏTİN ELMİ-PEDAQOJİ FƏALİYYƏTİNDƏ ANA DİLİ MƏSƏLƏSİ VƏ ONUN PROBLEMLƏRİ

***Рафаэль Маил оглы Алиев***
*старший преподаватель Азербайджанского Государственного Университета Нефти и Промышленности*

# ВОПРОСЫ И ПРОБЛЕМЫ РОДНОГО ЯЗЫКА В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АББАСА САХХАТА

***Rafael Mail Aliyev***
*senior lecturer at*
*Azerbaijan State University of Oil and Industry*

# CHALLENGES AND ISSUES OF MOTHER TONGUE IN ABBAS SAHHAT'S SCIENTIFIC AND PEDAGOGICAL ACTIVITY

**Xülasə.** Abbas Səhhət XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni mühitinin ən istedadlı nümayəndələrindən biridir. Böyük ədibin zəngin yaradıcılığında mühüm bir hissəni Azərbaycan dilinin problemləri tuturdu. Onun pedaqoji fəaliyyəti, yeni tipli məktəb yaradılması sahəsindəki fəaliyyəti, ərəb əlifbasının dəyişdirilməsində ciddi və qətiyyətli mövqe nümayiş etdirməsi, dil saflığı uğrunda apardığı mübarizə bütün dövrlər üçün örnəkdir.
***Açar sözlər:*** *A. Səhhət, anadilli dərsliklər, ərəb əlifbası, Azərbaycan dili, alınma sözlər, təhsil problemləri, dil saflığı*

**Резюме:** Аббас Саххат - один из самых талантливых представителей литературной и культурной среды Азербайджана конца XIX и начала XX веков. Важной частью богатого творчества великого писателя были проблемы азербайджанского языка. Его педагогическая деятельность, работа в области создания школы нового типа, решительная позиция в изменении арабского алфавита и борьба за чистоту языка являются примером на все времена.
***Ключевые слова:*** *А. Саххат, учебники родного языка, арабский алфавит, азербайджанский язык, заимствованные слова, проблемы образования, чистота языка*

**Summary.** Abbas Sahhat is one of the most talented representatives of the literary and cultural environment of Azerbaijan in the late 19th and early 20th centuries. An important part of the rich work of the great writer was the challenges of the Azerbaijani language. His pedagogical activity, activity in the field of creating a new type of school, decisive position in changing the Arabic alphabet and struggle for the purity of language are an example for all times.
***Keywords:*** *A. Sahhat, textbooks in native language, Arabic alphabet, Azerbaijani language, borrowed words, educational challenges, language purity*

XIX əsrin sonu XX əsrin birinci yarısı Azərbaycan ədəbi-mədəni mühitinin ən parlaq simalarından biri Abbas Səhhətdir. Onun yaşadığı dövr ictimai, siyasi, mədəni mühitin son dərəcə gərginliklərlə, milli-mənəvi oyanışın intibah xarakteri ilə seçilir. Maarifin, pedaqoji fikrin inkişafında lazımı qədər böyük uğurlara imza atmış bu mütəfəkkir ziyalının yaradıcılığı müxtəlif səviyyələrdə öyrənilsə də, yeni yanaşmaları zəruri edir.

Son dövr ədəbi-mədəni mühit A. Səhhətin (1881- 1918) bədii irsinin, onun ensiklopedik

fəaliyyətinin öyrənilməsi sahəsində ciddi işlər görməkdədir. Müəllim, metodist, tərcüməçi, alim, jurnalist, nasir və s. kimi gördüklərinin ciddi elmi qiymətləndirilməsi, müxtəlif istiqamətlərdə təhlili aparılır. Onu da əlavə edək ki, bu təkcə A. Səhhətlə bağlı olmayıb, bütünlükdə o dövrə olan münasibətin nəticəsidir. Çünki XIX əsrin sonu XX əsrin birinci yarısı Azərbaycan ədəbi-mədəni fikir tarixinin ən zəngin mərhələlərindən biri kimi böyük maraq doğurur. Bir növ etnosun milli oyanışının əvəzsiz hadisəsi olaraq qiymətləndirilir. A. Səhhətin şair, yazıçı, tərcüməçi, publisist kimi çoxyönlü fəaliyyəti, ana dilinin təmizliyi, dərsliklərin yaranması, şagirdlərin təhsilə yiyələnməsinin aktual problemləri, əlifba məsələsi və s. ilə bağlı mülahizələri bu gün də aktuallığını qoruyub saxlayır.

"İbtidai xalq məktəbləri haqqında əsasnamə" (1864-cü il 14 iyul), "Gimnaziya və progimnaziyaların nizamnaməsi" (1864-cü il 19 noyabr) əsasnaməsi tədris prosesində bir sıra dəyişikliklərə rəvac verdi. Belə ki, Azərbaycandakı tədris müəssisələri də ümumtəhsil təhsil sistemi əsasında işlərini qurmağa başladı. Burada ən ağrılı tendensiya Azərbaycan dilinin tədris proqramlarından çıxarılması, təhsildə ruslaşdırma siyasətinin həyata keçirilməsi idi. A. Səhhətin də bütünlükdə fəaliyyəti bu problemlərin həlli məsələlərinə hesablanmışdı. "Türk əlifbası", "İkinci il", "Ədəbiyyat məcmusu", "Gülzar" və s. çoxlu sayda dərslikləri, dərs vəsaiti, metodiki vəsaitləri bunun nümunəsidir. Zəngin pedaqoji fəaliyyəti bütünlükdə məktəb problemlərinin öyrənilməsinə və onun həlli yollarının müəyyənləşməsinə həsr olunmuşdur. "Yeni məktəb", "Türk ədəbiyyatına ilk qədəm" kitabları zərurətdən, pedaqoji mühitin ehtiyaclarından yaranmışdır. Ona görə də A. Səhhət yaradıcılığını müxtəlif istiqamətlərdə təhlil etmək bir problem kimi aktuallıq kəsb edir. "Məsləkim tərcümeyi-halımdır" deyən maarifçi bütün fəaliyyəti boyu bu tezisə sədaqət göstərmişdir. Onun lirik şeirləri, dram əsərləri, təmsilləri, tərcümələri, dərslikləri və s. məhz vətəndaşlıq duyğusunun faktı kimi yaranmışdır. "Yaz", "Bağça", "Ana və bala", "Məktəb şagirdi", "Quşlar", "Bahar", "Vətən" və s. kimi onlarla əsəri bu gün də ədəbiyyatımızın klassik nümunələridir. "Onun pedaqoji irsi təhsil və tərbiyə prosesini öyrənməklə yanaşı, digər xalqların pedaqoji fikir tarixi ilə müqayisə edib, milli pedaqogikamızın üstünlüklərini aşkarlamaq, onu daha da zənginləşdirmək üçün geniş imkanlar açır" (2, s. 106-107). Görkəmli maarifçi dərslik ehtiyacını daha çox hiss edirdi, çünki o bilirdi ki, ana dilinin zənginliyini qorumaq, xalqın gələcəyini qurmaq üçün maariflənmə işinin təşkilinə daha düzgün yanaşmaq lazımdır. M. Mahmudbəyovla birgə tərtib etdiyi "Yeni məktəb" (1909) dərsliyi o dövrün ən uğurlu nümunələrindən idi. Məlum olduğu kimi, həmin dövrdə ictimai-mədəni həyatda gedən yenilənmə çox ciddi qarşıdurmalarla, fikir ayrılıqları, münasibət fərqlilikləri ilə müşahidə olunurdu. Əlifba məsələsi uğrunda gedən mübarizələr bunun ən bariz nümunəsidir. Bu təkcə Azərbaycan səviyyəsində deyil, bütünlükdə Qafqaz və türk xalqları səviyyəsində özünə yer alırdı. A. Bakıxanov, M.F. Axundov, S.Ə. Şirvani, M. Şahtaxtlı, M. Mahmudbəyov, F. Ağazadə, Ü. Hacıbəyov, C. Məmmədquluzadə, Y.V. Çəmənzəminli, S.S. Axundav, Q.R. Mirzəzadə, R. Əfəndiyev, Ü. Hacıbəyov və başqalarının yeni tipli məktəblərin yaranması, ana dilinin tədrisi, qadınların təhsili və s. məsələlərlə bağlı mücadiləsi özünüdərkin nümunəsi kimi mühüm önəm daşıyırdı. Dil məsələləri A. Səhhət yaradıcılığında xüsusi fərqlənən xətdir. Onun şeirləri, dərslikləri, məqalələri məhz bu problemin aydınlaşmasına yönəlmişdi. Hətta görkəmli ədibin özü də bu sırada bütünlükdə fəaliyyəti ilə nümunə idi. O belə düşünürdü ki, şagirdlərə ana dilinin zənginliyini, nitq mədəniyyətinin önəmliliyini mühüm olan kimi mənimsətmək qarşıda duran vacib məsələdir. Görkəmli ədib "ey qələm atəşbar ol, ey dili - qafil, oyan, hüşyar ol" deyirdi. "O hazırlıqlı bir müəllim kimi ana dilində yeni üsullu məktəblər açılması, mədəniyyət ocaqlarının şəbəkəsinin genişləndirilməsi, dərsliklər tərtibi, təlim-tərbiyə işlərinin yeni əsaslarla təşkili, Azərbaycan dilinin saflığı və zənginliyi, qabaqcıl Şərq və Avropa mədəniyyətinin xalq içərisində yayılması və s. ictimai-pedaqoji və mədəni kütləvi işlərin həyata keçirilməsində təqdirəlayiq xidmətlər göstərmişdir. Lakin A. Səhhətin ədəbi-bədii yaradıcılığı haqqında geniş tədqiqat işləri aparılmasına baxmayaraq, onun elmi-pedaqoji fəaliyyəti və görüşləri tədqiq edilməmişdir" (2, s. 106-107). Son dövrlərdə klassiklərin, milli-mənəvi mədəniyyətin öyrənilməsində bir canlanma müşahidə olunur. A. Səhhətin elmi-

pedaqoji fəaliyyətində dil məsələsi, ana dilinin saflığı, əlifba məsələsi problem kimi mühüm önəm daşıyır. Lakin A. Səhhətin ədəbi-bədii yaradıcılığı haqqında geniş tədqiqat işləri aparılmasına baxmayaraq, onun elmi-pedaqoji fəaliyyəti və görüşləri tədqiq edilməmişdir" (2, s. 106-107). O, bütün problemlərin həllində xalqın maariflənmə səviyyəsinin yüksəldilməsini, yeni dünyagörüşlü, müasir cəmiyyətlə ayaqlaşa biləcək nəslin formalaşdırılmasını əsas vasitə kimi görürdü. A. Səhhətin bədii irsi də məhz şairlik, müəllimlik timsalında qovuşur və biri digərini tamamlayan fakta çevrilir. "Ana və bala", "Oğru və anası", "İki uşaq", "Məktəb şagirdi", "Tənbəl", "Vətən", "Əhmədin qeyrəti", "İstiqbal bizimdir", "Şair, şeir pərisi və şəhərli" və s. şeirləri uşaqların duyğusuna, məktəb həyatına, şagirdlərin təlim və tərbiyəsinə hesablanmışdır. "A. Səhhət uşaqları məktəbə və maarifə çağırır, nicat yolunun ancaq elmdə olduğunu söyləyir. Bu məramını uşaqların təbii ehtiyacının nəticəsi kimi ifadə edir" (3, 144). Ümumiyyətlə, XIX əsrin sonu XX əsrin əvvəlləri bütünlükdə mədəni mühit məhz bu vəziyyətin reallaşmasına, maariflənmənin aparılmasına, etnosun mədəni səviyyəsinin yüksəldilməsinə hesablanmışdı. Ona görə də bütünlükdə ədəbiyyat, yaradıcı mühit bu istiqamətdə gərəkli işlərə rəvac vermişdi. H. Zərdabinin "balalarımızın başa düşəcəyi əsərlər yazmaq" çağırışı öz təsirini göstərirdi. A. Səhhət də həm şeirləri, həm bədii publisistik yazıları, həm də məktəbdarlıq işi ilə bu sahədə gərəkli addımlar atmaqda idi. "Xalqa, vətənə ziyalı kimi layiqincə xidmət göstərmək üçün ictimai həyatı maarif və mədəniyyətin gücü ilə zənginləşdirməyi dərindən dərk edən A. Səhhət vətəndaşlıq duyğusu və məslək eşqi ilə bu sahənin inkişafına çalışmış, bu xeyirxah arzuların bir gün həqiqətə çevriləcəyinə sonsuz inam bəsləmişdir" (1, s. 107). Şairin ayrı-ayrı şeirlərində vurğulanan qayə, çağırışlar bunun nümunəsi idi və o xüsusi olaraq vurğulayırdı ki, "ayıl ey bülbülü gülzari-vətən, nəğmən ilə ola bidar vətən". Bu mülahizələrində o dünyanın inkişaf etmiş ölkələrinin uğurlarına müraciət edir və onun mahiyyətini açıb nümunə kimi göstərməyə çalışır. Bütün geriliklərin səbəbini maariflənmənin azlığında görürdü.

De səni göndərsin atan məktəbə,
Elm oxuyub ta yetəsən mətləbə (4, s. 160).

A. Səhhətin "Məktəb uşağı", "Ana və oğul", "Cücələr", "Qarı və qulluqçuları", "Qaranquş balaları", "Quşlar", "İt və kölgəsi", "Ot biçini", "Tənbəl", "Güllərin bəhsi", "Küçə uşağı", "Ayı və arılar", "Tülkü və meymun", "Tülkü və qurd", "Sərçə və qırğı", "Oğru və anası", "İlk bahar", "İki uşaq", "Köç", "Ana və bala", "Məktəb şagirdi", "Bir məktəbdə imtahan" və s. şeirləri dil saflığı, ana dilinin zənginliyi baxımından nümunədir. A. Səhhət təkcə məktəbdə müəllimlik fəaliyyəti ilə kifayətlənmir, həm də çoxşaxəli fəaliyyəti, dərslik yazması, tərcümələri, orijinal şeirləri, nəzəri mülahizələri ilə də diqqəti cəlb edir. "A. Səhhət Şamaxıda açılmış realnı məktəbinin (1906) müəllimi olur və o, ana dilindən dərs deyir. Geniş bilik sahibi olan şair qısa bir müddətdə şagirdlərin sevimlisinə çevrilir. O, yeni maarif ocaqlarının yaradılmasını, məktəblərdə dərslik ehtiyacını duyduğuna görə, yeni dərsliklərin tərtib olunmasına çalışır, bu sahədə öz bacarığını əsirgəmir. M. Mahmudbəyovla birgə tərtib etdiyi "Yeni məktəb" (1909) dərsliyi onun fəaliyyətindən biridir. Bu dərsliyə daxil edilən şeirlərin və rus ədəbiyyatından tərcümələrin xeyli hissəsi A. Səhhətin idi" (1, s. 106**)**. Yüksək vətəndaşlıq duyğusu ilə çalışan A. Səhhət bütün fəaliyyəti ilə mövcud vəziyyətdə problemlərin aradan qaldırılmasını bir məqsəd olaraq qarşısına qoyurdu və burada isə ən əsas olan dil sadəliyi, nitqin mükəmməlliyi güclü tərəf idi. Çünki mühit özlüyündə bir xaosla, ictimai, siyasi, mədəni kəskinləşmənin gərginlikləri ilə üz-üzə qalmışdı. Ona görə də xüsusi olaraq vurğulayırdı ki, "qardaş, gözünü aç, bircə oyan, gör nə zamandır, dünya üzü elm ilə bu gün rəngi-cənandır". A. Səhhət "Dəvət", "Naseh", "Təbliğ, yaxud kütbeynlərə cavab", "Fəryadi intibah, yaxud amali vətənpərvəranə", "Fürdövsül-ətfal, yaxud cocuqlar bağçası", "Məktəbə davam ediniz" ("Yeni məktəb" dərsliyində), "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi", "Üküvvət məktəbi", "Student" və s. kimi əsərlərində məktəb, təhsil problemlərini, uşaqların maariflənməsini, mədəni səviyyəsinin yüksəldilməsini, nitq saflığını, dil aydınlığını bir problem kimi qoyurdu. A. Səhhətin də bütün fəaliyyətində dil aydınlığı, ana dilinin imkanlarından istifadə etməklə onun şagirdlərə aşılanması və nitq qabiliyyətinin formalaşdırılması dururdu. Bunların hamısının isə

ümumi mahiyyəti xalqın mədəni səviyyəsinin yüksəldilməsinə, mövcud problemlərin aradan qaldırılmasına hesablanmışdır.

**Problemin aktuallığı.** A. Səhhətin bütün fəaliyyətində ana dilinin təmizliyi, dərsliklərin yaranması, şagirdlərin təhsilə yiyələnməsinin aktual problemləri, əlifba məsələsi və s. ilə bağlı mülahizələri bu gün də aktuallığını qoruyub saxlayır.

**Problemin elmi yeniliyi.** A. Səhhətin ədəbi-bədii irsinin bir bütöv olaraq təhlili XIX əsrin sonu XX əsrin əvvəllərindəki mədəni prosesi, maarifpərvər ziyalının mədəni mühitdə yerini, dövrün problemlərini, latın qrafikalı əlifbanın meydana gəlməsi zərurətini, məktəbin ehtiyaclarını, dərslik sistemindəki çatışmazlıqları, aradan qaldırılması yollarını və s. öyrənmək üçün əsaslı mənbə olması müəyyənləşmişdir.

**Problemin praktik əhəmiyyəti.** A. Səhhətin poeziyası, mənzum məktubları, uşaq şeirləri, hekayələri, pyesləri, elmi-publisistik məqalələri XIX əsrin sonu XX əsrin əvvəllərində mədəni mühitin problemlərini, ana dili məsələsinin aktuallığını, əlifba məsələsini, tədrisdəki mənzərəni öyrənmək üçün ən əsaslı mənbədir.

**Ədəbiyyat:**

1. Xəlil, Z. Uşaq ədəbiyyatı / Z. Xəlil, F. Əsgərli. -Bakı: ADPU, -2011.-498 s.

2. İsayev, İ. Pedaqoji irsimizdən: M.V. Vidadidən H.K. Sanılıyadək. / İ. İsayev. –Bakı: ADPU, -2014.-406 s.

3. Namazov, Q. Azərbaycan uşaq ədəbiyyatı. Ali məktəblər üçün dərslik / Q. Namazov -Bakı: Bakı Universiteti, -2007.- 444 s.

4. Səhhət, A. Seçilmiş əsərləri. / A. Səhhət. -Bakı: Lider, -2005. -456 s.

5. Sur A. Məktəblərdə türk dili. // “Həyat” qəzeti.- 1905, 13 və 25 oktyabr

**E-mail:** adnsu61@mail.ru

**Rəyçi:** *filol.ü.elm.dok.,prof.* **A. Ağayeva**

**Redaksiyaya daxil olub:** 09.04. 2021.